**Təsdiq edirəm:**
Biznes mühiti və beynəlxalq reytinqlər
üzrə Komissiyanın sədri, Azərbaycan
Respublikası Baş nazirinin birinci
müavini Yaqub Eyyubov

________________

30.09.2022-ci il

## Dünya Bankı Qrupunun "Əlverişli Biznes Mühiti" layihəsinin "Biznesə daxilolma" indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin həyata keçirilməsinə dair 2022-2023-cü illər üzrə Yol Xəritəsi

| Sıra №-si | Alt komponentlərin tələbləri | Görüləcək tədbirlər | Son icra müddəti | İcraçı qurumlar | Məsul şəxslər |
|---|---|---|---|---|---|
| **1. Biznesin təsis edilməsi qaydalarının keyfiyyəti** | | | | | |
| **1.1. Biznesin təsis edilməsi praktikasının qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla təkmilləşdirilməsi** | | | | | |
| 1.1.1. | Kommersiya hüquqi şəxsin elektron təsis edilməsi və elektron əməliyyatların həyata keçirilməsi üçün təhlükəsiz və etibarlı eyniləşdirmə alətlərinin mövcud olması | 1. Riskli vergi ödəyicilərinin hüquqi şəxs təsis etmək hüququnun qanunvericiliklə məhdudlaşdırılması ilə bağlı müvafiq layihələrin hazırlanaraq aidiyyəti üzrə təqdim olunması | 30.12.2022 | İqtisadiyyat Nazirliyi (Dövlət Vergi Xidməti), Ədliyyə Nazirliyi | Hüsniyyə Abdullayeva, Zaman Məmmədov, Namiq Dərgahov |
| | | 2. Təhlükəsizliyin qorunması məqsədilə daha innovativ texniki imkanlardan, alternativ identifikasiya üsullarından ("üz tanıma" üsulları) istifadə edilməklə kommersiya hüquqi şəxslərin elektron qeydiyyatının daha təkmil formada həyata keçirilməsi ilə əlaqədar müvafiq layihənin hazırlanaraq aidiyyəti üzrə təqdim olunması | 30.09.2023 | İqtisadiyyat Nazirliyi (Dövlət Vergi Xidməti), Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi (VXSİDA) | Zaman Məmmədov, Hüsniyyə Abdullayeva, Namiq Dərgahov |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | 3. “Əmtəə nişanları və coğrafi göstəricilər haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən əmtəə nişanı kimi qeydiyyata alınmış sözlərin başqa şəxslər tərəfindən hüquqi şəxsin adı kimi istifadə edilməsi hallarının qarşısının alınması ilə bağlı müvafiq qanunvericilik layihələrinin hazırlanaraq aidiyyəti üzrə təqdim olunması | 30.12.2022 | İqtisadiyyat Nazirliyi (Dövlət Vergi Xidməti), Əqli Mülkiyyət Agentliyi, Ədliyyə Nazirliyi | Hüsniyyə Abdullayeva, Günay Ağayeva |
| | | 4. Qeydə alınmış əmtəə nişanlarına dair məlumatların Dövlət Vergi Xidmətinin Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemi və Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin informasiya sistemi arasında inteqrasiyasının həyata keçirilməsi üçün texniki imkanların, həmçinin hüquqi şəxsin adının əmtəə nişanı kimi qeydiyyata alınmış sözlər sırasında yoxlanılması imkanının yaradılması | Müvafiq normativ sənəd qüvvəyə mindikdən sonra 4 ay ərzində | İqtisadiyyat Nazirliyi (Dövlət Vergi Xidməti), Əqli Mülkiyyət Agentliyi | Zaman Məmmədov, Hüsniyyə Abdullayeva, Namiq Dərgahov |
| | | 5. Kommersiya qurumlarının dövlət qeydiyyatı zamanı eyniləşdirmə tədbirlərinin təkmilləşdirilməsi (qeydiyyat prosesi zamanı BMT-nin qərarlarına uyğun sanksiya tətbiq edilmiş şəxslər haqqında məlumata giriş imkanının yaradılması, təsisçi və rəhbərin bu siyahı üzrə yoxlanılması) sahəsində beynəlxalq təcrübələrin araşdırılması, beynəlxalq sənədlərdə nəzərdə tutulan tövsiyələrin milli qanunvericilik və inzibatçılıqla müqayisə edilməsi, qeyd olunan sahədə mütərəqqi təcrübələrin tətbiqi ilə bağlı təkliflərin hazırlanması | 30.03.2023 | İqtisadiyyat Nazirliyi (Dövlət Vergi Xidməti, Maliyyə Monitorinqi Xidməti), Ədliyyə Nazirliyi | Hüsniyyə Abdullayeva, Zaman Məmmədov, Namiq Dərgahov |
| 1.1.2. | Hüquqi şəxs yaratmaq üçün müraciət edən şəxslər tərəfindən reyestrin təmin etdiyi standart təsis sənədlərinin biznes reyestrinə elektron şəkildə təqdim edilməsi imkanı | Yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətin adi elektron dövlət qeydiyyatı zamanı elektron ərizəyə təsisçi tərəfindən nizamnamənin əlavə edilməsi tələbinin aradan qaldırılmasına dair qanunvericiliyə dəyişiklik edilməsi ilə bağlı müvafiq təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim olunması | 30.12.2022 | İqtisadiyyat Nazirliyi (Dövlət Vergi Xidməti), Ədliyyə Nazirliyi | Hüsniyyə Abdullayeva, Günay Ağayeva |
| 1.1.3. | Benefisiar mülkiyyətçi barədə məlumatların kommersiya hüquqi şəxsin qeydiyyatını aparan orqana təqdim olunması | 1. Kommersiya qurumlarının benefisiar mülkiyyətçisi (mülkiyyətçiləri) barədə məlumatların dövlət qeydiyyatına alınması və həmin məlumatların dövlət reyestrinin aparılması, bu sahədə aidiyyəti orqanlar (DVX, MMX) arasında səlahiyyət bölgüsünün müəyyən edilməsi ilə bağlı qanunvericilik layihələrinin hazırlanaraq aidiyyəti üzrə təqdim olunması | 30.12.2022 | İqtisadiyyat Nazirliyi (Dövlət Vergi Xidməti, Maliyyə Monitorinqi Xidməti), Ədliyyə Nazirliyi | Hüsniyyə Abdullayeva, Günay Ağayeva |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | 2. Kommersiya qurumlarının benefisiar mülkiyyətçisi (mülkiyyətçiləri) barədə məlumatların dövlət qeydiyyatına alınması və həmin məlumatların dövlət reyestrinin aparılması ilə bağlı texniki imkanların yaradılması | Müvafiq normativ sənəd qüvvəyə mindikdən sonra 4 ay ərzində | İqtisadiyyat Nazirliyi (Dövlət Vergi Xidməti, Maliyyə Monitorinqi Xidməti) | Zaman Məmmədov, Hüsniyyə Abdullayeva |
| *Qeyd: 1.1.3-cü bənddə nəzərdə tutulan tədbirlər eyni zamanda 2.1.1-ci bəndin tələbinin icra edilməsi məqsədilə həyata keçiriləcəkdir.* | | | | | |
| 1.1.4. | Kommersiya qurumlarının təsis sənədlərində və reyestrdə qeydiyyata alınmış məlumatlarında baş vermiş dəyişikliklər barədə qeydiyyat orqanına məlumat verilməsi | 1. Kommersiya qurumlarının təsis sənədlərində edilən dəyişikliklərin, eləcə də qeydə alınmış faktların hər bir sonrakı dəyişikliyinin qeydiyyata alınması üçün qanunvericilikdə nəzərdə tutulmuş müddətdə müraciətlərin edilməsinin zəruriliyi ilə bağlı müvafiq bildirişlərin rübdə 1 dəfə kommersiya qurumlarının elektron kabinetinə göndərilməsi üçün texniki imkanların yaradılması | 01.03.2023 | İqtisadiyyat Nazirliyi (Dövlət Vergi Xidməti) | Elçin Məmmədov, Zaman Məmmədov, Hüsniyyə Abdullayeva |
| | | 2. Məhdud məsuliyyətli cəmiyyətlərin təsis sənədlərinə edilən dəyişikliklərin, eləcə də qeydə alınmış faktların hər bir sonrakı dəyişikliyinin elektron qaydada həyata keçirilməsi üçün texniki imkanın yaradılması | 30.06.2023 | İqtisadiyyat Nazirliyi (Dövlət Vergi Xidməti) | Zaman Məmmədov, Hüsniyyə Abdullayeva |
| | | 3. Kommersiya qurumunun idarəetmə orqanlarının səlahiyyət müddəti bitdikdə müvafiq elektron xidmətlərdən istifadə imkanlarının avtomatlaşdırılmış qaydada məhdudlaşdırılması ilə bağlı tədbirlərin həyata keçirilməsi | 30.06.2023 | İqtisadiyyat Nazirliyi (Dövlət Vergi Xidməti) | Zaman Məmmədov, Hüsniyyə Abdullayeva |
| **1.2. Biznesə daxil olmaq üçün normativ hüquqi bazada məhdudiyyətlər** | | | | | |
| 1.2.1. | Kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatı zamanı mövcud olan ümumi və xüsusi məhdudiyyətlərin müəyyən edilməsi və aradan qaldırılması | 1. Xarici investisiyalı məhdud məsuliyyətli cəmiyyətin elektron dövlət qeydiyyatı zamanı hüquqi ünvanı təsdiq edən sənədin elektron ərizəyə əlavə edilməsi tələbinin aradan qaldırılmasına dair qanunvericiliyə dəyişiklik edilməsi ilə bağlı müvafiq təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim olunması | 30.12.2022 | İqtisadiyyat Nazirliyi (Dövlət Vergi Xidməti), Ədliyyə Nazirliyi | Hüsniyyə Abdullayeva, Günay Ağayeva |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | 2. Xarici investisiyalı məhdud məsuliyyətli cəmiyyətin elektron dövlət qeydiyyatı zamanı hüquqi ünvanı təsdiq edən sənədin elektron ərizəyə əlavə edilməsi tələbinin aradan qaldırılması ilə bağlı müvafiq proqram təminatında dəyişikliyin həyata keçirilməsi | Müvafiq normativ sənəd qüvvəyə mindikdən sonra 3 ay ərzində | İqtisadiyyat Nazirliyi (Dövlət Vergi Xidməti) | Zaman Məmmədov, Hüsniyyə Abdullayeva |
| | | 3. Xarici investisiyalı məhdud məsuliyyətli cəmiyyətlərin elektron dövlət qeydiyyatı zamanı işçilərin əmək müqaviləsi məlumatlarının elektron ərizəyə daxil edilməsi və qeydiyyat prosesi başa çatdıqdan sonra (nizamnamə, şəhadətnamə, dövlət reyestrindən çıxarış elektron kabinetə göndərildikdən sonra) həmin məlumatların Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin elektron informasiya sisteminə ötürülməsinə dair müddəaların qanunvericilikdə əks etdirilməsi ilə bağlı müvafiq layihələrin hazırlanaraq aidiyyəti üzrə təqdim olunması | 30.12.2022 | İqtisadiyyat Nazirliyi (Dövlət Vergi Xidməti), Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Ədliyyə Nazirliyi | Hüsniyyə Abdullayeva, Günay Ağayeva |
| | | 4. Xarici investisiyalı məhdud məsuliyyətli cəmiyyətlərin elektron dövlət qeydiyyatı zamanı işçilərin əmək müqaviləsi məlumatlarının elektron ərizəyə daxil edilməsi və qeydiyyat prosesi başa çatdıqdan sonra (nizamnamə, şəhadətnamə, dövlət reyestrindən çıxarış elektron kabinetə göndərildikdən sonra) həmin məlumatların Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin elektron informasiya sisteminə ötürülməsi ilə bağlı texniki imkanların yaradılması | Müvafiq normativ sənəd qüvvəyə mindikdən sonra 4 ay ərzində | İqtisadiyyat Nazirliyi (Dövlət Vergi Xidməti), Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Zaman Məmmədov, Hüsniyyə Abdullayeva, Nizami Məmmədov |
| 1.2.2. | Xarici investisiyalı hüquqi şəxslər üzrə xarici dildə sənədlərin autentifikasiyası | 1. Elektron imza ilə təsdiq edilmiş xarici rəsmi sənədlərin dövriyyəsinin sadələşdirilməsi məqsədilə “Açıq açarlar infrastrukturu”nun öyrənilməsi və təşviqi ilə bağlı təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim olunması | 30.06.2023 | Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, VXSİDA, İqtisadiyyat Nazirliyi (Dövlət Vergi Xidməti), Xarici İşlər Nazirliyi, Maliyyə Nazirliyi, Ədliyyə Nazirliyi | Leyla Bərxudarzadə, Hüsniyyə Abdullayeva, Günay Ağayeva |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | 2. Beynəlxalq Xüsusi Hüquq üzrə Haaqa Konfransının təşviq etdiyi Elektron Apostil Proqramına uyğun olaraq elektron apostil verilmiş xarici mənşəli sənədləri müvafiq proqram vasitəsilə yoxlamaqla onların tərcüməsinin informasiya sistemi üzərindən notarius tərəfindən distant rəsmiləşdirilməsi və ünvana çatdırılması xidmətinin təşkili üzrə proseslər xəritəsinin hazırlanması və bu məqsədlə proqram təminatının yaradılması üçün zəruri olan maliyyə resurslarının cəlb edilməsi imkanlarının qiymətləndirilməsi və təkliflərin verilməsi | 30.06.2023 | Ədliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi (Dövlət Vergi Xidməti), Xarici İşlər Nazirliyi, Maliyyə Nazirliyi | Leyla Bərxudarzadə, Günay Ağayeva, Hüsniyyə Abdullayeva |
| | | 3. "Xarici rəsmi sənədlərin leqallaşdırılması tələbini ləğv edən Haaqa Konvensiyası"nın üzvü olmayan ölkələrə münasibətdə sənədlərin leqallaşdırılmasını həyata keçirən Azərbaycan Respublikasının xarici ölkələrdəki konsulluqları tərəfindən "Elektron notariat" informasiya sistemi çərçivəsində leqallaşdırılmış sənədlərin elektron nüsxələrinin hazırlanaraq tərcümə üçün göndərilməsi və notarius tərəfindən rəsmiləşdirildikdən sonra müştərinin aidiyyəti ünvanına çatdırılması xidmətinin təşkili üzrə proseslər xəritəsinin hazırlanması və bu məqsədlə proqram təminatının yaradılması üçün zəruri olan maliyyə resurslarının cəlb edilməsi imkanlarının qiymətləndirilməsi və təkliflərin verilməsi | 30.06.2023 | Ədliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi (Dövlət Vergi Xidməti), Xarici İşlər Nazirliyi, Maliyyə Nazirliyi | Leyla Bərxudarzadə, Günay Ağayeva, Hüsniyyə Abdullayeva |
| **2. Biznes startapları üçün rəqəmsal dövlət xidmətləri və informasiyanın şəffaflığı** | | | | | |
| **2.1. Biznesin təsis edilməsi və əməliyyatların başlanılması üçün onlayn xidmətlərin mövcudluğu** | | | | | |
| 2.1.1. | Kommersiya hüquqi şəxsin qeydiyyat prosesini əhatə edən elektron sistemin mövcudluğu | 1. Kommersiya hüquqi şəxslərin digər təşkilati-hüquqi formalarının elektron dövlət qeydiyyatının həyata keçirilməsi ilə bağlı müvafiq qanunvericilik layihələrinin hazırlanaraq aidiyyəti üzrə təqdim olunması | 30.12.2022 | İqtisadiyyat Nazirliyi (Dövlət Vergi Xidməti), Ədliyyə Nazirliyi | Hüsniyyə Abdullayeva, Günay Ağayeva, Leyla Bərxudarzadə |
| | | 2. Kommersiya hüquqi şəxslərin digər təşkilati-hüquqi formalarının elektron dövlət qeydiyyatının həyata keçirilməsi ilə bağlı müvafiq texniki imkanların yaradılması | Müvafiq normativ sənəd qüvvəyə mindikdən sonra 5 ay ərzində | İqtisadiyyat Nazirliyi (Dövlət Vergi Xidməti) | Zaman Məmmədov, Hüsniyyə Abdullayeva |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | 3. Dövlət Miqrasiya Xidməti tərəfindən verilən Azərbaycan Respublikasında müvəqqəti və ya daimi yaşamaq üçün icazə vəsiqəsi əsasında "Asan İmza" və ya "Elektron İmza" almış əcnəbi və ya vətəndaşlığı olmayan şəxslər üçün xarici investisiyalı məhdud məsuliyyətli cəmiyyətlərin elektron dövlət qeydiyyatından istifadə imkanının yaradılması | 30.06.2023 | İqtisadiyyat Nazirliyi (Dövlət Vergi Xidməti), Dövlət Miqrasiya Xidməti | Zaman Məmmədov, Hüsniyyə Abdullayeva, Günay Ağayeva |
| | | 4. Kommersiya hüquqi şəxslərin elektron dövlət qeydiyyatı prosesi başa çatdıqdan sonra hüquqi şəxsə lisenziya və ya icazə tələb olunan fəaliyyət növləri barədə məlumatları əks etdirən bildirişin göndərilməsi, hüquqi şəxs lisenziya tələb olunan fəaliyyət növünü seçdikdə isə "Lisenziyalar və icazələr Portalı"na keçid imkanının yaradılması | 30.09.2023 | İqtisadiyyat Nazirliyi (Dövlət Vergi Xidməti), VXSİDA | Zaman Məmmədov, Hüsniyyə Abdullayeva |
| **2.2. Biznesin təsis edilməsi və əməliyyatların başlanılması üçün xidmətlərin qarşılıqlı fəaliyyəti** | | | | | |
| 2.2.1. | Kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatı prosesində iştirak edən qurumların məlumat bazalarının əlaqələndirilməsi | Qanunvericiliyə uyğun olaraq İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin, Elm və Təhsil Nazirliyinin rəylərinin, Mərkəzi Bankın ilkin razılığını təsdiq edən sənədin, habelə Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin məktubunun avtomatik qaydada qeydiyyat orqanına təqdim olunması üçün elektron mübadiləni təmin edən texniki imkanın yaradılması | 30.09.2023 | İqtisadiyyat Nazirliyi (Dövlət Vergi Xidməti, Əmlak Məsələləri Dövlət Xidməti, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi), Elm və Təhsil Nazirliyi, Mərkəzi Bank | Zaman Məmmədov, Hüsniyyə Abdullayeva, Namiq Dərgahov |
| 2.2.2 | Kommersiya hüquqi şəxslərin reyestrinin tamlığının təmin olunması | Kommersiya hüquqi şəxslərin dövlət reyestrindən çıxarışda həmin çıxarışın verildiyi tarixə kommersiya hüquqi şəxslərin mikro, kiçik, orta və iri sahibkarlıq subyekti olması barədə məlumatın qeyd olunması üçün çıxarışa müvafiq sətrin əlavə edilməsi ilə əlaqədar texniki imkanların yaradılması | 30.09.2023 | İqtisadiyyat Nazirliyi (Dövlət Vergi Xidməti) | Zaman Məmmədov, Hüsniyyə Abdullayeva, Namiq Dərgahov |
| **2.3. Şirkət barədə məlumatların onlayn mövcudluğu və informasiyanın şəffaflığı** | | | | | |
| 2.3.1. | Kommersiya qurumlarının dövlət reyestrinin ictimaiyyət üçün açıq olması | Kommersiya qurumlarının dövlət reyestrinə daxil edilən məlumatlarındakı dəyişikliklərin tarixçəsinə baxış imkanının yaradılması | 30.09.2023 | İqtisadiyyat Nazirliyi (Dövlət Vergi Xidməti) | Zaman Məmmədov, Hüsniyyə Abdullayeva, Namiq Dərgahov |

| | | | | | |
|---|---|---|---|---|---|
| 2.3.2. | Kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatı ilə bağlı mövcud informasiya resurslarının təkmilləşdirilməsi | 1. Dövlət Vergi Xidmətinin internet informasiya ehtiyatında kommersiya qurumlarının dövlət qeydiyyatı, aktiv uçot vahidlərinin uçota alınması və vergitutma məsələləri ilə bağlı bütün prosedurları əks etdirən səhifənin yaradılması (Azərbaycan və ingilis dillərində) | 30.12.2022 | İqtisadiyyat Nazirliyi (Dövlət Vergi Xidməti) | Zaman Məmmədov, Rövşən Məmmədov, Hüsniyyə Abdullayeva, Namiq Dərgahov |
| | | 2. Vergi ödəyicilərinə göstərilən xidmətlərin vahid standartlarının PDF formatla yanaşı, “html” üzərindən açılması imkanının və axtarış üzrə funksiyanın yaradılması | 30.12.2022 | İqtisadiyyat Nazirliyi (Dövlət Vergi Xidməti) | Zaman Məmmədov, Elçin Məmmədov |
| **2.4. Kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatı prosesləri, o cümlədən kommersiya hüquqi şəxslərin elektron dövlət qeydiyyatı sahəsində aparılmış islahatlarla bağlı məlumatlandırma, təbliğat və təşviqat işlərinin həyata keçirilməsi** | | | | | |
| 2.4.1. | Sahibkarlıq subyektlərinin kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatı sahəsində mövcud olan yeniliklər barədə məlumatlandırılması | 1. “Start-up”lar, mikro və kiçik sahibkarlıq subyektlərinin iştirakı ilə kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatı sahəsində mövcud olan yeniliklər barədə onlayn iclasların keçirilməsi | Mütəmadi | İqtisadiyyat Nazirliyi (Dövlət Vergi Xidməti, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi) | Hüsniyyə Abdullayeva, Nicat Əlizadə, Rövşən Məmmədov |
| | | 2. Kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatı mövzusunda aparıcı hüquq/konsaltinq şirkətləri ilə onlayn görüşlərin keçirilməsi, bu sahədə yeniliklər, mövcud problemlər və təkmilləşmə imkanlarının müzakirəsi | Mütəmadi | İqtisadiyyat Nazirliyi (Dövlət Vergi Xidməti) | Hüsniyyə Abdullayeva, Rövşən Məmmədov |
| | | 3. Kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatı sahəsində yeniliklər barədə vergi ödəyicilərinin elektron kabinetinə məlumatların göndərilməsi | Mütəmadi | İqtisadiyyat Nazirliyi (Dövlət Vergi Xidməti) | Elçin Məmmədov, Hüsniyyə Abdullayeva |
| | | 4. Biznesə başlama sahəsində aparılmış islahatların üstünlükləri və nəticələri barədə sahibkarlar arasında onlayn sorğuların keçirilməsi | Rübdə 1 dəfə | İqtisadiyyat Nazirliyi (Kiçik və Orta Biznesin İnkişafı Agentliyi, Dövlət Vergi Xidməti) | Nicat Əlizadə, Hüsniyyə Abdullayeva |
| 2.4.2. | Kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatı sahəsində mövcud olan yeniliklər barədə məlumatların KİV və sosial şəbəkələrdə yayılması | 1. Tətbiq olunan yeniliklər barədə videoçarx, qrafik çarx, animasiyalı infoqrafika hazırlanaraq onların sosial mediada yayımlanması | Mütəmadi | İqtisadiyyat Nazirliyi (Dövlət Vergi Xidməti) | Rövşən Məmmədov, Hüsniyyə Abdullayeva |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | 2. Tətbiq olunan yeniliklər barədə məlumatların ictimai gündəmdə saxlanılması məqsədilə informativ və statistik məlumatların hazırlanaraq KİV-də işıqlandırılması | Mütəmadi | İqtisadiyyat Nazirliyi (Dövlət Vergi Xidməti) | Rövşən Məmmədov, Hüsniyyə Abdullayeva |
| | | 3. Problemli mövzularla bağlı maarifləndirici materialların hazırlanması və yayımlanması | Mütəmadi | İqtisadiyyat Nazirliyi (Dövlət Vergi Xidməti) | Elçin Məmmədov, Nicat İmanov, Hüsniyyə Abdullayeva |